# "Azərbaycanda Tütünlə Mübarizə üzrə Milli Konfrans" iştirakçılarının bəyannaməsi

Biz, aşağıda imza edənlər "Ümumdünya Səhiyyə Təşkilatının Tütünlə Mübarizə üzrə Çərçivə Konvensiyasını" və Azərbaycan Respublikasının Konstitusiyasının vətəndaşların sağlamlığı ilə bağlı müddəalarını əsas götürərək, Azərbaycanın Tütünlə Mübarizə Koalisiyasının yarandığını elan edirik.

Koalisiyanın yaranmasında başlıca məqsəd, ÜST tərəfindən epidemiya kimi elan edilmiş və müasir dövrdə əhalinin sağlamlığının qorunması sahəsində təhlükəli problemə çevrilmiş tütünə qarşı mübarizədə hökumət, qeyri hökumət, beynəlxalq təşkilatların ayrı-ayrı vətəndaşların, bütövlükdə Azərbaycan cəmiyyətinin səylərinin birləşdirilməsinə və icra orqanlarının bu istiqamətdə həyata keçirdiyi tədbirlərə ictimai dəstəyin təşkil olunmasına nail olmaqdır.

Bakı şəhəri, 14 dekabr 2009-cu il.